AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# RESPUBLİKA FƏNN OLİMPİADALARI
# RESPUBLİKA MƏRHƏLƏSİ
# YARIMFİNAL TUR

**11.03.2017**

# TARİX
# 9-cu SİNİF

**1. Alban hökmdarı Cavanşirin daxili siyasətinə aiddir:**

1. Ərəb xəlifəsi ilə danışıqlar apararaq vergilərin azaldılmasına nail olmuşdur,
2. Abadlıq, quruculuq işləri ilə ölkəni inkişaf etdirmişdir,
3. Xəzər xaqanlığı ilə sülh bağlamışdır.

A) Yalnız 2 B) 2,3 C) 1,2 və 3
D) Yalnız 1 E) 1,3

**2. XI əsrdə Şamaxı Şirvanşahlar dövlətinin paytaxtı olmuşdur. Şəhər getdikcə böyüyür və gözəlləşirdi. Bu, aşağıda göstərilənlərdən hansının nəticəsi ola bilər?**

1. Dərbəndə yaxın ərazidə yerləşməsi,
2. Karvan yolları üzərində yerləşməsi,
3. Paytaxt olması.

A) Yalnız 3 B) 2 və 3 C) 1 və 2
D) Yalnız 1 E) Yalnız 2

**3. Orta əsrlərdə Ərdəbil şəhəri dəfələrlə xarici işğalçıların yürüşünə məruz qalmışdır. Bu, aşağıdakılardan hansının nəticəsi ola bilər?**

1. Zəngin sərvətlərə malik olmasının,
2. Şəhərdə Şeyx Səfi məqbərəsinin yerləşməsinin,
3. Şəhərin mühüm sənətkarlıq və ticarət mərkəzi olmasının.

A) 1, 2 B) Yalnız 2 C) 2, 3
D) Yalnız 1 E) 1, 3

**4. Qeyd edilənlərdən neçəsi yanlışdır:**

1. Aşşur dövlətinin paytaxtı baş tanrının şərəfinə Aşşur adlandırılmışdı
2. Arşaki I Mitridat Selevkilər dövlətinin zəifləməsindən istifadə edərək Midiya və Mesopotamiyanı işğal etmişdi
3. E.ə. 339-cu ildə İskitlər Makedoniya çarı II Filippi məğlub etmişdilər
4. E.ə. 331-ci ildə iskitlər Makedoniya ordusunu məğlub etmişdilər
5. E.ə. I əsrin əvvəllərində Çində "Qırmızıqaşlılar" üsyanı baş vermişdi

A) 4–ü B) 2-si C) 1-i
D) 5-i E) 3-ü

**5. Nadir şah imperiyasının Səfəvilərdən fərqli cəhəti:**

A) Uzun müddət mövcud olması
B) Osmanlılarla müharibə aparması
C) Osmanlılarla müharibə aparmaması
D) Azərbaycan adlı inzibati vahidin yaradılması
E) Dünyəvi dövlət olması

**6. Abdulla Qaliya və Şeyx Mənsurun başçılıq etdiyi üsyanların oxşar cəhətləri:**

1. Dağlı xalqlarının azadlıq mübarizəsi olması
2. Rusiyanın müstəmləkə zülmünə qarşı olması
3. XVIII əsrdə baş verməsi
4. Müridizm bayrağı altında çıxış etmələri

A) 1,4
B) 1,3
C) 2,4
D) 2,3
E) 3,4

**7. XVIII əsrdə yaşayıb-yaratmış məşhur türk bəstəkarı:**

A) Nedim
B) Mehmet Ağa
C) Musa Əfəndi
D) İshak Paşa
E) Əbdülqadir Marağayi

**8. Sagit Xalfinin fəaliyyətinə aiddir:**

A) Buxarada qızlar üçün xüsusi məktəb açmışdır
B) İlk tatar əlifbasını tərtib etmişdir
C) Gürcüstanda ilk mətbəənin yaradıcısı olmuşdur
D) İlk Osmanlı mətbəəsinin təşəbbüsçüsü olmuşdur
E) Çuvaş əlifbasını tərtib etmişdir

**9. Uyğunluğu müəyyən edin:**

1. Volter
2. Monteskyö
3. Melye

a. İnqilab tərəfdarı deyildi
b. İri mülkiyyətin ləğvinə çalışırdı
c. Kəndlilərin inqilabi arzularının ifadəçisi idi
d. Xüsusi mülkiyyətin toxunulmazlığı tərəfdarı idi
e. Kilsənin nüfuzunu zəiflətməyə çalışırdı

A) 1-d,e; 2-a,c; 3-b
B) 1-a,b; 2-d,e; 3-c
C) 1-a,c; 2-b,d; 3-e
D) 1-a,e; 2-a,d; 3-c
E) 1-c; 2-b,e; 3-a,d

**10. Lodi döyüşünün nəticəsi:**

A) İtaliyadakı Avstriya qoşunları məğlub edildi
B) Fransız qoşunları Qahirəni tutdu
C) Osmanlılar serbləri məğlub etdi
D) İngilislər Maratx qoşunlarını darmadağın etdi
E) Əfqanlar Moğol qoşununu məğlub etdi

**11. Uyğunluğu müəyyən edin:**

1.Didro
2. Barras
3. Baböf

a. Fransız ensiklopediyasını nəşr etdirib
b. Fransız maarifçisi olmuşdur
c. Konstitusiyalı monarxiya tərəfadarı idi
d. Direktoriyada əsas rol oynayırdı
e. Bərabərlik uğrunda hərəkatın rəhbəri olmuşdur
f. İnqilabi demokratik diktaturanın ləğvini irəli sürürdü

A) 1-e,f; 2-a,c; 3-d
B) 1-a,b; 2-d; 3-e
C) 1-b,c; 2-a,e; 3-a,f
D) 1-d,e; 2-c,f; 3-b
E) 1-a; 2-b; 3-d,e,f

**12. Jak Lui David və V. Borovikovskinin fəaliyyətinə aid oxşar cəhət:**

A) Dövlət xadimi olmaları
B) Bəstəkar olmaları
C) Memar olmaları
D) Rəssam olmaları
E) Yazıçı-dramaturq olmaları

**13. Sultan Məhəmməd və Levninin fəaliyyətinə aid oxşar cəhət:**
A) Coğrafiyaşünas olmaları
B) XIV əsr hökmdarı olmaları
C) İslahatçı hökmdar kimi tanınmaları
D) Musiqiyə dair əsər yazmaları
E) Miniatür rəssamlığının nümayəndələri olmaları

**14. Əsərlərində Böyük Moğol hökmdarı Əkbər şahın fəaliyyətini təsvir etmiş tarixçi:**
A) Cəlaləddin Rumi
B) Fəzlullah Rəşidəddin
C) Mahmud Kaşğari
D) Əbül Fəzl
E) İbrahim Ludi

**15. XIII əsrdə hakimiyyətdə olmuş qadın hökmdar:**
A) Gövhərxan sultan
B) Raziyyə sultan
C) Qutuy xatın
D) Sara xatın
E) I Yelizaveta

**16. Uyğunluğu müəyyən edin:**
1. I Boleslav
2. III İvan
3. IV İvan

a. Praqanın Avropanın ən böyük şəhərlərindən birinə çevrilməsi
b. Polşa dövlətinin meydana gəlməsi
c. Rusiyda mərkəzləşmiş dövlətin yaranması
d. Qazan xanlığının işğalı
e. Həştərxan xanlığının işğalı
f. Bütün Polşa torpaqlarının birləşdirilməsi

A) 1-a; 2-d,e; 3-c
B) 1-b,f; 2-c,d; 3-e
C) 1-f; 2-c; 3-d,e
D) 1-b; 2-c; 3-d,e,f
E) 1-c; 2-b; 3-f

**17. Şamaxıda ipəkçiliyin inkişafı və bərpası üçün Təbrizdən yüz usta dəvət etmişdir:**

A) I İbrahim
B) Ağası xan
C) Məhəmmədsəid xan
D) Mustafa xan
E) I Xəlilullah

**18. Rəşt müqaviləsinə aiddir:**

A) 1732-ci il yanvarın 16-da imzalanmışdır
B) Rusiya Səfəvi tacirlərinə ölkənin hər yerində gömrüksüz ticarət etməyə icazə vermişdi
C) Rusiya ilə Osmanlılar arasında imzalanmışdır
D) Araz çayı sərhəd olmalı idi
E) Arazdan şimaldakı ərazilər Osmanlılarda qalmalı idi

**19. Nadir xan Əfşarın fəaliyyətinə aid deyil:**
A) Xəzəryanı bölgələrin geri qaytarılması
B) Qarabağın bir sıra tayfa başçılarını Xorasana sürgün etməsi
C) Rusiya ilə sülh bağlaması
D) Özünü III Abbasın vəkili elan etməsi
E) II Təhmasibi məğlub etməsi

**20. AXC hökumətinin fəaliyyətinə aid deyil:**
A) BDU-nun açılması haqqında qanunun qəbulu
B) İbtidai məktəblərdə təhsilin ana dilində aparılması haqqında qərarın verilməsi
C) Respublika ərazisində azad ticarətə icazə verilməsi
D) Bakı Bonu adlanan pul vahidinin dövriyyəyə buraxılması
E) Bakı XKS-in milliləşdirmə haqqında dekretlərinin ləğvi

**21. AXC və Ermənistan arasındakı Tiflis sazişinin şərtlərinə aiddir:**
A) AXC öz silahlı qüvvələrini Zəngəzurdan çıxarmalı idi
B) Araz-Türk Respublikası ləğv edilməli idi
C) Zəngəzurdakı 40 Azərbaycan kəndinin əhalisi çıxarılmalı idi
D) Ermənistan bölgəyə əlavə 7 minlik qoşun yerləşdirməli idi
E) Zəngəzurda ingilislərin nəzarətində general-qubernatorluq yaradılmalı idi

**22. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Tehranda əksinqilabi çevrilişin baş verməsi
2. Təbrizdə hakimiyyətin əyalət əncüməninin əlinə keçməsi
3. Difai partiyasının fəaliyyətini müvəqqəti dayandırması
4. Şərqi-rus qəzetinin nəşrə başlaması
5. Təbrizdə ilk teatr binasının tikilməsi
A) 5,4,1,2,3 B) 2,3,1,4,5
C) 4,2,1,3,5 D) 1,2,4,5,3
E) 3,5,2,4,1

**23. Məntiqi ardıcıllığı tamamlayın: İslam Abdullayev - Seyid Mirbabayev - ?**
A) Müslüm Maqomayev
B) Cabbar Qaryağdıoğlu
C) Üzeyir Hacıbəyov
D) Hüseyn Ərəblinski
E) Sidqi Ruhulla

**24. Ç. Dikkens və C. Bayronun yaradıcılığında fərqli cəhətlər:**
A) Ç. Dikkens şair, C. Bayron isə yazıçı olmuşdur
B) Ç. Dikkens ABŞ, C. Bayron isə İngilis ədəbiyyatının nümayəndəsi olmuşdur
C) Ç. Dikkens realizm, C. Bayron isə romantizm cərəyanının nümayəndəsi olmuşdur
D) Ç. Dikkens praqmatizm, C. Bayron isə tənqidi-realizm cərəyanının nümayəndəsi idi
E) Ç. Dikkens musiqiçi, C. Bayron isə tənqidçi olmuşdur

**25. Bank kreditlərinin faizini azaltdı, kənd təsərrüfatına vəsait qoyuluşunu artırdı. Qeyd edilən tədbirləri həyata keçirmişdir:**
A) Böyük Britaniyada Milli hökumət
B) Fransada Milli blok
C) Fransada Sol blok
D) İtaliyada “Xalq cəsurları”
E) Almaniyada faşistlər

**26. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Dağlı Respublikasının yaradılması
2. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
3. Almaniyada Nasist Partiyasının yaradılması
4. Alaş-Ordu dövlətinin yaradılması
5. Cənub-Qərbi Qafqaz Respublikasının yaradılması

A) 1,3,2,4,5  B) 2,1,3,5,4
C) 5,2,1,4,3  D) 4,1,2,5,3
E) 3,2,1,4,5

**27. Uyğunluğu müəyyən edin:**
1. Erkən tunc dövrü
2. Orta tunc dövrü
3. Son tunc, erkən dəmir dövrü

a. Maxta yaşayış yeri
b. Xocalı-Gədəbəy mədəniyyəti
c. Talış-Muğan mədəniyyəti
d. Qaratəpə yaşayış yeri
e. Qaraköpəktəpə yaşayış məskəni

A) 1-a; 2-e; 3-b,c,d
B) 1-b,d; 2-c; 3-a
C) 1-a,e; 2-b,d; 3-c
D) 1-b,d; 2-c; 3-e
E) 1-c; 2-a, e; 3-b,d

**28. Qeyd edilənlərdən neçəsi kurqan abidəsidir:**
1. Borsunlu
2. Üzərliktəpə
3. Bəyimsarov
4. Sarıçoban
5. Göytəpə

A) 4–ü  B) 2-si  C) 1-i
D) 5-i  E) 3-ü

**29. Qeyd edilənlərdən neçəsi doğrudur:**
1. Qədim Babildə Marduk məhsuldarlıq ilahəsi sayılırdı
2. Lullubi dövlət qurumunun ərazisi cənubda Səfidrud çayına çatırdı
3. Strabonun məlumatlarına əsasən, Albaniya mərkəzləşmiş dövlət idi
4. Arxeoloji məlumatlar Albaniyada təbəqələşmə olduğunu sübut etmir
5. Plutarxın yazdığına əsasən, Kanidi albanları məğlub etmişdi

A) 4–ü  B) 3-ü  C) 1-i
D) 5-i  E) 2-si

**30. Xəritə - sxemdə Marna döyüşündə iştirak edən dövlətləri müəyyən edin:**




A) IV,V  B) I,II,III
C) I,IV  D) I,III,V
E) III,V